**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№365/2** **13 may 2024-cü il**

**Beynəlxalq Audit Standartlarının tələbləri əsasında audit sübutlarının toplanması üzrə metodik vəsaitin və müvafiq formaların hazırlanması barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 1.2.4-cü "Beynəlxalq Audit Standartlarının tələbləri əsasında audit sübutlarının toplanması üzrə metodik vəsaitin və müvafiq formaların hazırlanması" bəndinə və Auditorlar Palatası sədrinin 2024-cü il 16 yanvar tarixli 1/3 nömrəli "Beynəlxalq Audit Standartlarının tələbləri əsasında audit sübutlarının toplanması üzrə metodik vəsaitin və müvafiq formaların hazırlanması barədə" Sərəncamına uyğun olaraq, ölkəmizdə auditor xidməti bazarında şəffaflığın artırılması, haqsız rəqabətin və dempinq hallarının aradan qaldırılması, auditor xidmətinin keyfiyyətinin yüksəldilməsi və auditə ictimai etimadın gücləndirilməsi istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsini təmin etmək, habelə yeni fəaliyyətə başlamış auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditin düzgün aparılmasına metodik yardımın göstərilməsini təmin etmək məqsədilə işçi qrupu tərəfindən hazırlanmış materialları müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Beynəlxalq Audit Standartlarının tələbləri əsasında işçi qrupu tərəfindən auditin aparılmasına dair audit sübutlarının toplanması üzrə müvafiq Formaların hazırlanması barədə məlumat nəzərə alınsın (əlavə olunur).
2. Auditorlar Palatasında fəaliyyət göstərən "Dəyirmi masa"nın rəhbərinə (Q.Bayramov) tapşırılsın ki, bir ay müddətində bu qərarın birinci bəndində nəzərdə tutulan məsələlərin əhəmiyyətini, auditorların hər birinin bu sənədlərə olan münasibətini, habelə audit aparılan zaman bu nümunəvi faylların istiqamətverici rol oynadığını nəzərə alaraq, "Dəyirmi Masa"da müzakirəyə çıxarılması tövsiyə olunsun.
3. Auditorlar Palatasının icraçı direktoru S.Gülməmmədova və Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (Q.Əhmədov) tapşırılsın ki, üç ay müddətində Şurada müzakirə zamanı edilən irad və təkliflər, habelə keçiriləcək "Dəyirmi masa"nın nəticələri nəzərə alınmaqla materialların yenidən işlənib hazırlanması və Auditorlar Palatasının internet səhifəsində yerləşdirilməsi təmin edilsin.
4. Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**